BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2012*

UOT 1 (091)

# A.ŞOPENHAUERİN FƏLSƏFİ İRSİNDƏ ROMANTİZM ƏNƏNƏLƏRİ

**A.S.MƏMMƏDOVA**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***mamedov.afaq@yandex.ru***

*Məqalədə Alman fəlsəfəsinin görkəmli nümayəndəsi A.Şopenhauerin fəlsəfi görüşləri tədqiqat obyektinə çevrilir. Müəllif Şopenhauerin yaradıcılığına diqqəti çəkərək onun romantizm fəlsəfəsindən qaynaqlanmasına dair mühakimələr irəli sürür. Müəllifin fikrincə, A.Şopenhauerin fəlsəfi sistemindəki bir sıra başlıca kateqoriyalar və anlayışlar romantizm fəlsəfəsindən, xüsusilə F.Şleqel və F.V. Şellinqin təlimindən mənimsənilmişdir. Şopenhauer fəlsəfəsi romantizm ənənələrinin yeni formada davamı, neoromantizmin nümunəsi kimi səciyyələnir.*

**Açar sözlər:** romantizm, romantizm fəlsəfəsi, neoromantizm, romantizm ənənələri

Bütün elm sahələri kimi fəlsəfə tarixində də bir sıra problemləri çağdaş nəzəri metodoloji prinsiplər və meyarlar əsasında yenidən tədqiqat obyektinə çevirmək, şərh etmək və dəyərləndirmək imkanı yaranmışdır. Tarixi fəlsəfi irsin yeni baxış bucağından təshihi Alman fəlsəfəsinin görkəmli nümayəndələrindən olan A.Şopenhauerin (Arthur Schopenhauer) (1788–1860) yaradıcılığını da yeni səpgidən təhlili zərurətini aktuallaşdırır.

A.Şopenhauerin fəlsəfi görüşləri mahiyyət etibarilə romantizm ənənələrindən qaynaqlanmışdır. Onun fəlsəfi sisteminin başlıca kateqoriyası olan iradə məfhumu romantizm fəlsəfəsindən, xüsusilə, F.Şleqel və Şellinqin təlimindən mənimsənilmişdir.

Şopenhauerin iradə metafizikası və volyuntarizmi Şellinqin mistik irrasionalizminin məntiqi nəticəsi olaraq formalaşmışdı. Şopenhauer Şellinq fəlsəfəsində mövcud olan «özünütəsdiq» ifadəsinə diqqəti cəlb edir. Onun fikrincə, «özünütəsdiq», «öz-özünü tamamlama» substansional varlığın və ənənəvi metafizikanın anlayışlarıdır. Bu anlayışlarda ağıl öz ilkin ölçü meyarını tapır və mühakimələrini bu meyarla tamamlayır. Şopenhauer özünü İ.Kant fəlsəfəsinin varisi hesab etsə də, mahiyyət etibarilə, F.V.Şellinqin azadlıq fəlsəfəsi haqqında ideyalarını inkişaf etdirmişdir.

Şopenhauer yaradıcılığının başlıca ideya nəzəri qaynaqlarından olan romantizm fəlsəfəsində azadlığa cəhd rasional zəkanın imkanlarından kənar,

ezoterik, mistik dühanın, kor və ağılsız iradənin gücü ilə həyata keçirilir. Mühakimə yürütmək qabiliyyətinə malik olan və öz hüdudlarını müəyyən edən zəka faydalı təsir bağışlamağa qadir deyildir. Belə zəka hüdudları və inamsızlıq baxımından bilavasitə və ya bilavasitə qətiyyətsiz və hətta özünün «qənimi» kimi qiymətləndirilir. Məlumdur ki, Kant fəlsəfəsində tənqid yalnız zəkanın sınaqdan keçirilməsi və yoxlanılmasından və beləliklə, onun hər hansı zahiri çərçivələrlə məhdudlaşdırmaqdan ibarət deyildir. Çünki burada söhbət ümumiyyətlə, zaman və məkan fövqündə fəaliyyət göstərən mücərrəd və qeyri-insani zəkadan deyil, apriori zaman və məkan formalarının xas olduğu hissi zəkadan gedir. Kantın tənqidi insan zəkasını «onun öz hüdudları daxilinə gətirir». Bu hüdudlar daxilində öz mahiyyətini tapan zəka öz sərhədlərini tanıması səbəbindən Şellinq və Şopenhauerin "əsassız" iradəsindən fərqli olaraq artıq heç vaxt öz-özü üçün yad olmur.

Qeyd etmək lazımdır ki, klassik fəlsəfədə iradənin mahiyyəti müxtəlif səpgilərdə müəyyənləşdirlir. Ənənəvi metafizikada iradə varlıq hesab olunur. Eyni zamanda "iradə" sözü həvəs, ehtiras, cəhd kimi başa düşülür. Şellinqin fikrincə, zəka həqiqi iradədir. Zəka bütün hissi olaraq qavranılan rəngarənglik-lərin ilkin qaynağı, universal vahidin təsəvvürü, qanun, qayda və intizamın müəyyənləşdirilməsi qabiliyyəti kimi başa düşülür. Antik fəlsəfədən bəllidir ki, Platon qəlbdə üç hissəni - zəka, affekt və ehtirası fərqləndirirdi. Aristotelə görə isə qəlbin ağıllı hissəsində zəkaya əsaslanan arzu və ehtiras yox, iradə doğulur. Bununla bağlı Aristotel qeyd edirdi ki, əgər qəlb uç hissədən ibarət-dirsə, onda hər bir hissədə arzu olacaqdır. Zəka universal həvəsə malikdir və universalda öz arzusunu qərarlaşdırır. Bundan çıxış edən Şellinq zəkanı universal iradə hesab edir. Kantın fəlsəfəsində iradə anlayışlara uyğun olaraq fəaliyyət göstərməyi ifadə edir, arzu etmək qabiliyyəti yalnız anlayışlarla müəyyən edilə bildiyi, yəni məqsəd haqqında təsəvvürlərə uyğun olaraq fəaliyyət göstərdiyi üçün iradədir. Lakin obyekt və ya mənəvi vəziyyət, yaxud davranış yalnız onların mümkünlüyü, mütləq qaydada məqsəd haqqında təsəvvürü nəzərdə tutmadığı zaman məqsədəuyğun adlandırılır, sadəcə olaraq, ona görə ki, onların mümkünlüyü bizim tərəfimizdən izah edilə bilər.

Romantizm fəlsəfəsindən qaynaqlanan Şopenhauer təlimində iradə həvəs, ruh və zəkanın ifadəsidir. Zəkaya lazım olan iradə verilmişdir. Zəka həvəsi və niyyətinə müvafiq olaraq öz ideya və anlayışlarının reallaşdırılması zamanı iradəsini həyata keçirməyə çalışır. Şellinq də qeyd edirdi ki, varlıq təşəkkül və həyatdır. Filosof "sadə" varlığı özündəvarlıqdan fərqləndirir. Onun fikrincə, "Özündəvarlıq sadəcə olaraq özündə olan əbədi iradə və azadlıqdır" [2, 98]. Şopenhauer fəlsəfəsində iradə, qeyri əsas kimi mövcudluğu üçün özündən kənarda hər hansı əsaslandırmaya ehtiyac duymur, o, daimi və həm də öz daxilində mövcud olur. İradə, əbədiyyət kimi, hər zaman bütün həyata keçirilənlərdən irəlidə mövcud olur. İradə, zamandan və hər hansı qanuna-uyğunluqdan asılı deyildir. O, hər zaman "eynivaxtlıdır" *(nunc stans)*. İradə,

özünü təsdiq kimi, daimi olaraq yalnız öz-özünə əsaslanır. Şopenhauerə görə "iradə anlayışı yeganə anlayışdır ki, mənbəyi hadisə və ya düşünülən təsəvvür yox, hər kəsin birbaşa şüurudur. Onda hər kəs öz fərdiliyinin mahiyyətini hansısa forma, hətta subyekt və obyekt forması olmadan, özü kimi qalaraq dərk edir, çünki burada dərk edən və idrak üst-üstə düşür" [5, c.1, 410]. Bu interpretasiyada iradə özündə və özü üçün varlıq kimi başa düşülür. Iradə müstəqil mövcud olduğuna görə rasional idrak üçün açıq deyil. Lakin iradə bizim hər birimizdə təzahür edir, buna görə də o, yalnız birbaşa düşüncədə qavranıla və hiss edilə bilər. İradə bütün hadisələrin əsasında durur, lakin əgər o, ağılsız, kor və qaranlıq iradə deyilsə, heç bir növ təsəvvürdən asılı deyil. Şellinqin fikrincə, iradə mütləq və ən düzgün olandır və o, bütün şeylərdə ilkindir. Varlıq özünün ali formasında iradə kimi müəyyən olunur, real ali mövcudluq isə ruhdur və hər şeydən əvvəl, Şellinqə görə məhəbbət ruhudur. "Çünki ruh da hələ ali deyil; o, yalnız ruh və ya mənəvi məhəbbətdir. Ən ali varlıq isə məhəbbətdir. Məhəbbət hələ əsasın mövcud olmasından da öncə var idi, lakin onunla yanaşı nifrət də mövcud idi" [2, 149]. Şellinq varlığın iradə anlayışını inkişaf etdirərək "əsasın iradəsi" və "ağıl iradəsi" məfhumlarını fərqləndirirdi. İradə kimi varlıq da hər bir aspektdə mövcud olanın subyektiv xarakteri inkişaf edir. Şellinq və Şopenhauerdə bütün ənənəvi metafizikaya *subjectum* kimi yanaşılır. İlkin varlıq iradədir. Özünə şərtsiz şəkildə qayıdan iradə subyektiv və həqiqi subyekt kimi təqdim edilir. Həqiqi mövcud olan və ya həqiqi iradə həm də məhəbbətdir. Şellinq və Şopenhauer arasındakı fərq özünü bunda göstərir. Şopenhauer "Dünya, iradə və təsəvvür kimi" adlı traktatında həyatın metafizikası haqqında bəhs edərək dünyada qarşısıalınmaz yaşamaq həvəsinə qərq olmuş kor və ağılsız iradənin hakim olduğunu irəli sürürdü. O, qeyd edirdi ki, iradə özündə şey, həyat isə görünən dünyadır, hadisə - iradənin güzgüsüdür. Dünya kölgə və bədən kimi iradəni müşayiət edir və ondan ayrılmazdır. əgər iradə varsa, həyat və dünya da olacaqdır. Beləliklə, həyat iradəsi həyata zəmanət verir və biz həyat iradəsi ilə təmin olunduğumuz üçün, hətta ölərkən belə, öz mövcudluğumuz haqqında narahat olmamalıyıq. Əslində biz görürük ki, fərd yaranır və məhv olur, lakin fərd yalnız hadisədir, o, ancaq əsaslandırma qanununa (*principio individuationis*) tabe olan idrak üçün mövcud olur. Bu baxış bucağından fərd öz həyatını təmənnasız əldə edir, heç nədən yaranır, ölərkən bu neməti itirir və heç nəyə qayıdır. Lakin biz həyatı fəlsəfi cəhətdən, yəni onun ideyaları baxımından dərk etdikdə məlum olur ki, nə iradənin bütün hadisələrdəki özündə şey olması, nə də bütün hadisələrin tamaşaçısının idrakın subyekti kimi çıxış etməsi yaranma və ölümlə əlaqədar deyildir. Doğulma və ölüm iradə hadisəsinə, nəticə etibarı ilə, isə həyata məxsusdur. Bütövlükdə təbiət «həyat iradəsinin təzahürü və onun həyata keçirilməsidir» [5, c.1, 379-380].

F.Şlegelin romantizm fəlsəfəsində təbiət müqəddəs və mütləq kamildir. Həyatın mənbəyi və əsası kimi təbiət F.Şlegel mühazirələrinin predmeti kimi

çıxış etmişdir. Onun fikrincə, "fəlsəfəsinin predmeti daxili mənəvi həyatdır və buraya onun hər hansı birtərəfli istiqamət üzrə qabiliyyətləri yox, bütün tamlığı şamildir. Forma və metodla bağlı isə həyat fəlsəfəsi yalnız həyatı, yəni məhz artıq həyata şövqləndirilmiş şüuru ifadə edir, ona görə ki, o, şüurun hansısa bir tərəfini yox, onu bütünlükdə dərk etməli və ona özünün predmeti kimi sahib olmalıdır" [4, c.2, 336].

Lakin Fr. Şlegeldə həyat fenomeni varlığın idrakı kimi başa düşülürdüsə, Şopenhauerdə varlıq ilkin mahiyyətə malik olan və özlüyündə iradə zamanından kənarda mövcudluq mənasında anlaşılırdı. Əgər varlıq həyata iradə kimi başa düşülərsə və bu iradənin özü isə "əsassızlıqdırsa", onda bu, o deməkdir ki, iradə daxilən əsas kimidir. O, iradə dünyanın başlanğıcı kimi heç bir əsasa ehtiyac duymur. İradə azad olduğu və heç bir əsasa ehtiyac duymadığı üçün hər şeyi özü əsaslandırır. Bu səbəbdən də, qayıda biləcəyi şeydən azaddır, yəni o, öz daxilində olan şeyə geri qayıda bilər. İradə üçün, ümumiyyətlə, geridə olan heç nə yoxdur, çünki o, ilkindir, özlüyündə safdır, zamandan və məkandan kənardır. Şopenhauer fəlsəfəsində iradə özündə şey kimi bütün növlərdə təzahür edən əsaslandırma qanunu çərçivəsindən kənardadır və bu mənada tamamilə əsassızdır. Deməli o, kütləvilikdən də azaddır. İradənin zaman və məkanca təzahürü sonsuz sayda olsa da özü təkdir. Lakin o, subyekt kimi tək deyil, iradənin təkliyi mümkün olan çoxluğun əksi kimi dərk edilir və abstraksiya vasitəsilə çoxluqdan yaranan anlayış deyil; o, zaman və məkandan, "*principi individuationis*"dən, daha doğrusu, çoxluq imkanından kənarda yerləşən şey kimi təkdir [5, c.1, 379].

Şopenhauer təlimində iradə əbədi unikal mövcudluq, zaman və məkan fövqündə dayanan fenomen kimi anlaşılır. İradə varlıq olmaq etibarilə heç də sonsuzluq və mövcudluğun fasiləsizliyi deyildir. Əgər əbədiyyət hüdudsuz daimilikdirsə, onda bu, həm də zamanın dəf edilməsini, deməli, müəyyən mənada zaman axınına cəlb olunmağı ifadə edir. Çünki belə müstəqillik özünə hər zaman mövcud olmuş, daimi və ötüb keçməyən əbədiyyət mənasında indini (hazırkını) (*nunc stans*) daxil edir. Şopenhauer bu haqda belə yazır: "Biz, hər şeydən əvvəl, aydın şəkildə başa düşməliyik ki, iradənin təzahür forması və nəticə etibarı ilə, həyat və reallığın forması əsaslandırma qanununa uyğun şəkildə yalnız təsəvvürdə, idrakda mövcud olan nə gələcək, nə də keçmiş deyil, indikidir. Keçmişdə heç bir insan yaşamamışdır, gələcəkdə də heç kim yaşamayacaqdır; yalnız indiki zaman bütün həyatın formasıdır, lakin o, heç vaxt əldən alına bilinməyən möhkəm əmlakdır. İndiki hər zaman öz tərkibi ilə birlikdə mövcud olur: çünki onlar şəlalədəki göy qurşağı kimi, tərəddüd etmədən möhkəm şəkildə bir yerdə dururlar. Çünki iradə üçün həyat, həyat üçün isə indi labüdən təmin edilmişdir". İradə hər zaman "indi davam edəndir" *(nunc stans)*, "çünki iradə bütün hadisələrin özündəvarlığıdır" [5, c.1, 382-383]

İradə zamandan asılı deyil, o, hadisələrin ardıcıllığı axınından kənardadır, buna görə də onun varlığı dünyada heç bir dəyişikliklə müşayiət olun-

mayan əbədiliyi ifadə edir.

Şopenhauer iradənin məqsədi haqqında yazır ki, "iradə özünün aşağıdan tutmuş, yuxarıya qədər bütün təzahür pillələrində son məqsəddən tamamilə məhrumdur, daimi olaraq özündə həvəs hiss edir, çünki həvəs onun yeganə mahiyyətidir. Reallaşdırılmış heç bir məqsəd həvəsə son qoya bilmir və həvəs sona qədər qane olmur, sonsuzluğa qədər davam edir" [5, c.1, 410]. Qənaətbəxşlik iradənin təbiətinə zidd olduğu üçün dünyada fəlakət və bədbəxtlik mövcud olur. Varlıq və mövcudatın mahiyyətində olan əzab və ölüm daim qane olunmayan qeyri-şüurinin nəticəsidir. Şopenhauer zəkanı iradə kimi şərh edərkən mərhəmət etikası, elm və incəsənətin azadlıq əldə edən gücü haqqında təlimi və ilahi nirvana sükutu uğrunda qüdrətli iradənin asketik inkar edilməsi idealını gördüyü buddizmdən bəhs edir. Şopenhauer özünü Kantın "ardıcıl" və "həqiqi" varisi kimi onun fəlsəfəsinin romantik baxımdan mənimsənilməsinin tərəfdarı kimi çıxış etmişdir. Şopenhauer Kanta istinad edərək ikili idraki qabiliyyət haqqında danışırdı. O, düşüncə təsəvvürü qabiliyyətini hissiyyat kimi adlandırırdı; intellektual təsəvvür qabiliyyətini isə ağıla aid edirdi. Ancaq, Kantdan fərqli olaraq, o, ilk qabiliyyəti özünə həm də hissi təsəvvürləri daxil edən dərrakə adlandırırdı, eyni zamanda dərrakəni o, hərfi mənada beynin funksiyası kimi başa düşürdü. Təfəkkür determinizm əlaqəsi vasitəsilə hissi qavrayışları qaydaya salır, zəka isə bütün qavranılanları aydınlaşdırır və anlayışların köməyilə bizim təsəvvürlərimizi birbaşa təəssüratlardan yayındırmaq qabiliyyətinə malikdir. Bu səbəbdən insan həm keçmişi, həm də gələcəyi dərk edə bilir. Beləliklə, zəka zaman üzərində hakimiyyət əldə edir və bu, bütün dərk edilmiş fəaliyyətlərin əsasında durur. Şopenhauerə görə, subyekt eyni zamanda həm dərk edən, həm də dərk olunan varlıqdır, ancaq dərk edən subyektin özü yox, iradə bizim özünüdərkimizin predmetidir, çünki biz özümüzü əvvəlcə bilavasitə müxtəlif növ ehtiras və arzulara malik olan, daha sonra isə dərk edən iradi varlıqlar kimi qavrayırıq. Bizim bilavasitə yaşadıqlarımız, bütün daxili hərəkətlərimiz iradədən başqa heç bir şeyin mahiyyəti deyildir.

Dərk edən və iradi subyekt tamamilə müxtəlif ölçülərə malikdirlər, lakin özünüdərk, subyekt və obyektin, dərk edən və iradi subyektin eyniliyi "Mən" sözü vasitəsilə ifadə olunur. Cismani dünyada fəaliyyət göstərən güclərin mahiyyəti bizim üçün gizlidir, çünki biz onlara xaricdən tamaşa edir və nəzərdən keçiririk. Həmin güclərin səbəblərini, fəaliyyət qanunlarını və nəticələrini dərk edirik, lakin onların mahiyyəti bizim üçün sirr olaraq qalır. Digər tərəfdən, daxilimizdə fəaliyyətdə olan qüvvəni xaricdən nəzərdən keçirmək mümkün deyildir, biz onu tamamilə birbaşa, yəni daxildən dərk edirik, çünki həmin bu qüvvə bizim şəxsi varlığımızdır. Dərk edən subyektlə dərk olunan obyekt arasındakı münasibətdə gizli heç bir şey yoxdur. Materiya örtük kimi, dərk olunacaq şeyləri qapayır. İnsanın arzu və həvəsi ilə bağlı daxili vəziyyətindən biz yalnız öz fəaliyyətlərimizin səbəbini deyil, həm də onların motivasiyası kimi çıxış edən qüvvəni dərk edirik. Motivasiya bizim daxilimizdə fəaliyyət

göstərən, qüvvə xarakterinə malik olan səbəb kimi səciyyələnir. O, təbiətdə fəaliyyət göstərən qüvvəyə bənzəyir. Şeylərin təbiətdəki qaydasına xas olan və insan varlığının daxilində motivasiya kimi üzə çıxan həmin qüvvə iradədən başqa bir şey deyildir. Şopenhauer bu fikri metafizikanın məhək daşı hesab edir. Motivasiya bütün səbəbiyyət növlərindən, insanın ağlı və dərrakəsi daxilindən keçən səbəbiyyət kimi səciyyələnir. İradə insan varlığının daxili mahiyyətini təşkil edir, idrakın istiqamətini və xarakterini müəyyənləşdirir. O, özünüdərkin ilkin başlanğıcıdır. Şopenhauerin fikrincə, dərk edən subyektin predmeti xarici dünya təsəvvürlər dünyasıdır, lakin istənilən dərk edən subyekt, hər şeydən əvvəl, fərdi və hiss edən bədəndir. Bu bədənin fəaliyyət xarakterinə malik ixtiyari hərəkətləri iradə aktlarıdır. Biz təkcə bədənə xas olan və müəyyən səbəb nəticəsində yaranan dəyişiklik və fəaliyyətləri dərk etmirik, biz burada, hər şeydən əvvəl, bilavasitə və kifayət qədər düzgünlüklə bütün bu dəyişikliklərin baş verməsinin səbəbi kimi çıxış edən gücü ifadə edirik. İstənilən insan bədəni iradənin ifadəsi və təzahürüdür. Hər bir insana bədən iki müxtəlif üsulla - təsəvvür və iradə kimi qalır. Bədən, təsəvvür olaraq digər obyektlər arasında obyekt kimi çıxış edir; o, özlüyündə təsəvvürün idrak predmetidir. Hiss edən və qavrayan bədən olaraq o, müxtəlif təəssüratlar əldə edir və buradan dərrakə hasil olur. O, məhz bizim idrakımızın ilkin və ən birbaşa obyektidir. Vücud obyekt kimi, determinizm prinsiplərinə tabe olur. Ona xas olan ixtiyari hərəkətlər və ya fəaliyyətlər iradi aktlarla yaranır, ancaq iradə özlüyündə təsəvvür obyekti kimi çıxış edə bilməz. Buna görə də, iradə ilə hiss edən cismin münasibəti səbəb xarakterli münasibətdir, çünki əsaslandırma qanunu yalnız iradənin özbaşına mövcud olmadığı düşüncə təsəvvürlərinə tətbiq edilə bilər. Cisim və ya hadisə özünü kəşf edən iradə kimi çıxış edir. Şopenhauer bu cismi "iradənin obyektivləşdirməsi" adlandırır. O, yazır ki, cismin fəaliyyəti obyektivləşdirilmiş, yəni düşüncəyə daxil olmuş iradi aktdan başqa bir şey deyil. Daha sonra biz görəcəyik ki, bu, təkcə motivlərdən qaynaqlanan yox, həm də qeyri-ixtiyari, qıcıqlanmadan yaranan cismin hər bir hərəkətinə aiddir, Bununla yanaşı, bütün cisimlər obyektivləşdirilmiş, daha doğrusu, təsəvvürə çevrilmiş iradədən başqa bir şey deyildir. Buna görə də məlum mənada demək olar ki, iradə - bədənin *a priori* dərk edilməsidir, bədən isə iradənin *a posteriori* qavranılmasıdır [5, c-1, 229].

Şopenhauerin fəlsəfəsində varlıq əyani şəkildə təsəvvür edilən əsas kimi dərk olunur. İradə isə varlığın substansiyası olmaqla hər hansı konkret müəyyənlikdən kənarda olduğu üçün «əsassızdır». Varlığın heç bir əsasa və əsaslandırmaya ehtiyac duymayan iradə kimi belə başa düşülməsi elmi əsaslandırılmış bilik və qaydaların, sağlam məntiq və əqli iradənin əksinə sirr və xaosun, dahilik və qeyri-şüuriliyin ideallaşdırıldığı romantizm fəlsəfəsi kontekstində formalaşmışdır. Şellinq yazırdı: "Bizim təbiət adlandırdığımız şey, bizdən sehrli, möcüzəli yazılarla gizlənmiş poemadır. Əgər bu tapmaca açılsaydı, biz öz-özünün axtarışında təəccüblü şəkildə yanılan ruhun

odisseyasını görərdik, çünki hiss dünyası içərisində yarışəffaf dumanın arxasından işıldayan bizim dərk etməyə çalışdığımız fantaziya ölkəsi var. Hər bir gözəl rəsm sanki həqiqi və ideal dünyanı bir-birindən ayıran gözəgörünməz arakəsmənin aradan qaldırılması sayəsində ortaya çıxır; o, həqiqi dünya örtüyü altından tutqun şəkildə işartı verən fantaziya dünyasının obrazları və sahələrinin aydın şəkildə təzahür etdiyi işıq kimi çıxış edir" [3, c-1, 484-485].

Romantizmdə fantaziya və intuisiya zəka və məntiqi idraka qarşı qoyulur, çünki zəka mif və dinin, dilin və poeziyanın həqiqi mənbələrini aşmaq iqtidarında deyildir. Şellinqin əsərlərində bəhs etdiyi "Fantaziyalar ölkəsi" ciddi məntiqi mahiyyətində hər hansı əsaslandırma prinsipindən məhrumdur. Burada rasional əsaslandırma prinsipi deyil, sirli və eyni zamanda aydın olanın, "xalq ruhu" və təbii panteizmin hər hansı yarımmif başlanğıcı nəzərdə tutulurdu. Bütün daxili olanlar içərisindən keçən və sonra bütün xarici olanlara axan ilkin panteist hiss haqqında bəhs olunurdu və o, məhz insanın özünü Allaha bənzətməsinə imkan verən həqiqi kəşf kimi çıxış edirdi. Höte bir dəfə gənc rəssamlara müraciətində belə demişdi ki, "Özünüzdə axtarın və hər şeyi tapacaqsınız; sevinin ki, sizdən kənarda, necə adlandırdığınızdan asılı olmayaraq sizin özünüzdə tapdığınız hər şeyə "bəli" və ya "amin" deyən təbiət var" [1, c-1, 423].

Romantizmin tarix və mədəniyyətə istiqamətlənməsi və fəlsəfi fikrin yalnız öz tarixi keçmişində nailiyyət əldə etməsinə dair fikir irəli sürərək, Şellinq qeyd edirdi ki, "Əgər fəlsəfəni dialektik prinsipdən, yəni xüsusiləşdirən, lakin məhz elə buna görə də ağlı onun istiqamətləndiyi ibtidai obrazla birlikdə nizama salan və yaradan prinsipdən məhrum etsək, o, artıq özündə nə ölçü, nə də qaydanı əks etdirəcək, onun, tarixdə özünə istinadgah axtarmaqdan və ənənəyə istinad etməkdən başqa bir şey qalmayacaqdır. O zaman fəlsəfə üçün də tarixdə norma və əsasın axtarılmasına başlanacaqdır, bu bir zamanlar bizdə bütün xalqların bədii əsərlərinin öyrənilməsi əsasında poeziyanın dirçəlməsinə bənzəyir" [2, 157-158]. Şellinq müasiri olduğu dövrə etiraz edərək insan azadlığının mahiyyəti barədə öz tədqiqatını aşağıdakı sözlərlə tamamlayır: "Xalis nəzəri inamın zamanı bilavasitə idraki imkanın verildiyi andan bitmişdir. Bizim sərəncamımızda olan kəşflər bütün yazılmış qanunlardan daha qədimdir, bu, təbiətdir. Təbiətdə hələ heç bir insan tərəfindən şərh edilməmiş ibtidai obrazlar öz ifadəsini tapmışdır, yazılmış kəşflərin ilkin obrazları isə artıq çoxdan öz təcəssümünü tapmış və açıqlığa qovuşmuşlar. Əgər bu açılmamış kəşflər haqqında biliklər dərk olunsaydı, onda din və elmin yeganə həqiqi sistemi fəlsəfi və tənqidi anlayışların bir neçə hissəsindən təşkil olunmuş miskin görünüşdə yox, həqiqət və intizamın tam parlaqlığında əks olunardı" [2, 158].

Şopenhauerə görə, təbiət qüvvələri hər zaman qeyri-məlum hadisələr, "okkult (fövqəl-təbii) keyfiyyətlər" kimi çıxış edirlər. İradə isə, bizə bilavasitə məlumdur, çünki o, bizim öz gizli mahiyyətimizdir. Kor və bizə məlum olmayan təbiət qüvvəsi kimi təzahür edən, itələmə və cəzbetmədə, maqnit və

elektrik hadisələrində, kristallaşmada, kimyəvi "oxşarlıqda" və böyümə proseslərində ifadə olunan iradə ilə qavrayış, düşüncə və idrakla müşayiət olunan iradə fərqləndirilir. Ancaq bu fərq iradənin özünə yox, yalnız onun təzahür üsul və dərəcələrinə aiddir. Söhbət onun mahiyyətindən yox, obyektivləşdirilməsi səviyyələrindən gedir. İradənin müxtəlif təzahürlərinin iyerarxiyası iradənin obyektivləşdirilməsi kimi çıxış edən dünyanı formalaşdırır. Bütün hadisələr əsaslandırma qanununa tabe olur, iradə isə bütün hadisələrdən qeyri-asılı olaraq yalnız özü üçün və yalnız özü sayəsində mövcud olur. İradəyə özükifayətlilik xasdır və o, heç bir əsasa malik deyil. Çoxsaylı hadisələr zaman və məkanda mövcuddurlar və məkan düşüncə formasının mahiyyətidir. Buna görə də, onlar hadisələr dünyasını şərtləndirir və formalaşdırırlar. İradə istənilən kütləvilikdən məhrumdur. O, bütün hadisələrin əsasında durur və hər zaman eyni mahiyyətə malik olur. Kant hadisələr və onların əsasında duran özündəşeylər arasında ciddi fərq qoymuşdur. Şopenhauer hesab edirdi ki, Kantın ən ali xidməti ondan ibarətdir ki, o, real və ideal olan arasında tam fərqi müəyyən etmişdir. Kanta görə, zamandan, məkandan və determinizmdən tamamilə asılı olmayan yeganə mahiyyət özündəşeydir. Bu yeganə mahiyyəti, yəni özündəşeyi Şopenhauer iradə adlandırır. İradə və özündəşey qarşılıqlı əvəz oluna bilən anlayışlardır, onlar eyniyyət təşkil edirlər. Özünüdərkin əsas forması, yeganə meyarı zamandır, bunun nəticəsində iradə ayrı-ayrı fəaliyyətlərin ardıcıllığı ilə dərk oluna bilər. Ancaq özündəşey zamanın fövqündədir. İradənın azadlığını iddia edən bütün mütəfəkkirlər qeyd edirdilər ki, sanki insan öz davranışlarına tam hakim çıxa bilir, lakin o, öz mahiyyətinə hakim çıxa bilmir. Əslində isə azadlığa münasibətdə əkslik təşkil edir. Şopenhauerin fikrincə, azadlıq və zərurət arasında həqiqi münasibət yalnız o şərtlə mümkündür ki, "bütün zərurət fəaliyyət və davranışlara, bütün azadlıq isə varlıq və mahiyyətə yerləşsin" [5, c-2, 367]. Hər bir şey qüvvə kimi iradə hadisəsidir. Reallıq məhz bundan ibarətdir. Bundan çıxış edərək Şopenhauer belə bir mühakimə irəli sürür ki, əvvəla, özündəşey iradə kimi dünyanın ağlasığan xarakteridir. İkincisi, dünya iradənin obyektivləşdirilməsi kimi bütün tamlığı və tədriciliyində onun empirik xarakterini formalaşdırır. Digər tərəfdən, dünya, müxtəlif hadisələrin təzahürləri məcmusu kimi sonsuzluğa qədər uzanır. Ayrı-ayrı hadisələr gələn şeylər axını əmələ gətirərəк fasiləsiz olaraq ortaya çıxır və yox olurlar. Şopenhauerin fikrincə, bu fasiləsiz axın, əbədi dəyişməni Heraklit dünyanın mahiyyəti kimi qəbul edirdi. Empirik dünyanın hər bir pilləsi ayrı-ayrı hadisələrdə eyni qüvvənin təzahür xarakterini, daha doğrusu, dünyanın tərkibini təşkil edən qüvvənin, mahiyyətin tipi və formasının ifadəsidir. Platon onları ideyalar və ya əbədi obrazlar, Aristotel formalar, sxolastlar substansional formalar kimi səciyyələndirir. Şopenhauerin fikrincə, "İradənin obyektivləşdirilməsinin sonsuz sayda fərdlərdə ifadə olunan müxtəlif pillələri onların əlçatmaz obrazları və ya şeylərin əbədi formaları kimi çıxış edirlər, özləri zaman və məkan sahəsinə, fərdlərin sahəsinə

girmirlər, dəyişikliklərə uğramırlar, unudulmazdırlar, əbədi olaraq mövcuddurlar, heç vaxt məhv olmur və əmələ gəlmirlər – bu iradə pillələri Platonun ideyalarından başqa bir şey deyillər" [5, c.2, 255].

Dərk edən subyekt nöqteyi-nəzərindən nəzərdən keçirilən dünya "ümumi təsəvvürdür", özündəşey hadisəsi kimi isə dünya "ümumi iradədir". Bu iradə istənilən çoxluqdan azaddır, çünki o, ilkin mahiyyətin bütün hadisələrində vəhdətdə və oxşardır. O, hər hansı əsasdan, hansısa səbəbdən, nəticə etibarı ilə isə istənilən motiv və məqsəddən kənardadır. Buna görə də o, səbəbləri qəbul edən və motivlər yaradan idrakdan kənardadır, elə bu səbəbdən də belə iradənin mahiyyəti bütün məqsədləri və bütün məmnunluqları istisna edən "kor həvəsdə", "fasiləsiz meyldə" ifadə olunur. İradə tam şəkildə dünyadakı bütün hadisələrdə iştirak edir. İradə, kor və şüursuz həvəs kimi istənilən teist və panteist dünyagörüşünü istisna edir. Bütün hadisələr eyni ilkin mahiyyətdən törədiyindən, onlar öz əsaslarına görə oxşardırlar, yəni onların xarici və daxili əlaqəliliyi onların "eynicinsli" olduğundan xəbər verir. Əgər bütün bu hadisələrin determinizm əlaqəsi xarici zərurət xarakterinə malikdirsə, qeyri-üzvi və üzvi təbiətin qarşılıqlı eynicinsliliyi isə xarici məqsədəuyğunluq kimi ifadə olunursa, onda üzvi bədənlərin qarşılıqlı uzlaşması və onların quruluşu daxili məqsədəuyğunluq xarakteri daşıyır. Prinsipcə təmin oluna bilinməyən kor həvəs kimi, iradə hər zaman xarici dünya hadisələrinə xas olan ixtilaf və fikir ayrılıqlarının mənbəyi kimi çıxış edir. Şopenhauerə görə, dünyanı daxildən "ac, öz-özünü yeyən iradə" hərəkətə gətirir. İradə, ümumiyyətlə, bütün hadisələrin ilkin mahiyyətidir, materiya isə bütün xarici hadisələrin ilkin əsasıdır. Artıq maddi dünyada itələmə və cəzb etmə qüvvələrini barışmaz mübahisəsi təzahür edir və artıq cəzb etmədə əlçatmaz məqsədə doğru yorulmaz və kor həvəs aşkar olunur. Şopenhauer yazır ki, varlığın hər bir pilləsində ilkin iradə irəliyə istiqamətlənmişdir və heç bir son məqsədə malik olmadığından və hər bir pillədə mübarizə yeniləndiyindən, bunun nəticəsində dünyada qorxu, ehtiyac və əzab hökm sürür. Dünyanı nə dünyəvi qəlb, nə də ilahi əsər kimi başa düşmək lazım deyil. Əgər biz dünyanı ilahiləşdiririksə, onda biz bununla Allahın mövcudluğunu inkar edirik. İstənilən canlı varlıq öz mövcudluğunu yalnız başqa varlıqların mövcudluğunu məhv edərək saxlayır. Şopenhauerə görə, hər kəs etiraf etməli olacaqdır ki, "belə dünyaya çevrilməyə razılaşmış Allah əslində ən yaxşı şeytan olmalıdır. Mən bilirəm ki, bu əsrin uydurma filosofları Spinozanın fikirlərini davam etdirirlər və bunda özlərinə haqq qazandırırlar» [5, c.2, 390].

Şopenhauerdən başlayaraq, şüur fəlsəfəsi öz yerini iradə fəlsəfəsinə verir. İradə anlayışı təsəvvür edilməyəcək dərəcədə genişlənir. Hətta ətalət prinsipi belə artıq iradə kimi şərh olunur. Belə iradə istənilən azadlıqdan məhrumdur. Azadlıq problemi iradənin aşkar və ya qeyri-aşkar şəkildə inkar edildiyi yerdə başlayır. İradə başlanğıcdır və bu baxımdan da hər bir insan öz həyatında iztiraba məhkumdur. İradəni və deməli, bu əziyyəti dəf etmək

həvəsi həyata qarşı etiraza gəlib çıxır. Bu həyatda hər yerdə ağrı vardır və bu ağrı həyatın iradə ilə bağlı olması ilə əlaqəlidir. İnsan həyatında əzabların qaçılmaz olması faktı da buradan çıxır. Nəticə etibarı ilə, dünya heç bir dərk olunmuş mənaya malik deyil, əgər söhbət insanın dünyadakı yerindən gedirsə, o, heç bir şeyə yaramır. Şopenhauer dünya iradəsini dəf etməyə istiqamətlənmiş din və dünya qavrayışı ilə bağlı fikirləri belə yaranmışdır. Buna görə də o, həmin dövrdə məşhur olan Ved, Upanişad və buddizmin müxtəlif formalarına məxsus mətnləri həvəslə oxuyurdu. O, ruhun yerdəyişməsi - sansara haqqındakı təlimə valeh olmuşdu. Klassik, yeni Avropa fəlsəfəsi üçün xarakterik olan təfəkkürün rasional ilkin şərtləri Şopenhauerin iradə metafizikasında rədd edilmişdir. Həyat, hər şeydən əvvəl, iradə ilə bağlıdır, çünki iradə heyvanlar və bitkilər səltənətində, insan həyatında və ümumiyyətlə, bütünlükdə kainatda hökmranlıq edir. İradə hər yerdə cazibə və ətalət qüvvəsi kimi fəaliyyət göstərir. İradə fəlsəfəsində xaos və fəlakətlər özünün ontoloji əsasını əldə edir.

Romantizm fəlsəfəsində bir sıra nihilist ideya və mühakimələr, ölüm, real həyatın inkarı haqqındakı sətiraltı mühakimələr Romantizm hərəkatından sonra XIX yüzilliyin ortalarında Şopenhauer fəlsəfəsində fərqli və yeni şəkildə şərh edilir və XX əsr Qərb fəlsəfəsinin başlıca ideya qaynaqlarından birinə çevrilirdi.

## ƏDƏBİYYAT


1. Кассирер Э. Идеи и образ. Гете, Шиллер, Гельдерлин, Клейст. Избранное. Опыт о человеке. т-1. СПб. М: Унив. кн., 2000, 653 с.
2. Шеллинг Ф.В. Философские исследования о сущности человеческой свободы и связанных с ней предметах. М.: Мысль, 1989, 636 с.
3. Шеллинг Ф.В. Сочинения в 2-х т., т-1., М.: Мысль, 1987, 637 с., т-II, 1989, 636 с.
4. Шлегель Ф. Эстетика. Философия. Критика. В 2-х томах. Т. II. М.: Искусства, 1983, 446 с.
5. Шопенгауэр А. Собрание сочинений: В 6 т. Т. 2: Мир как воля и представление: Т. 2 / Пер. с нем.; Под ред. А.Чанышева. М.: Республика, 2001, 529 с.


## РОМАНТИЧЕСКИЕ ТРАДИЦИИ В ФИЛОСОФСКОМ НАСЛЕДИИ А.ШОПЕНГАУЭРА


**А.А.МАМЕДОВА**


## РЕЗЮМЕ


В статье объектом исследования являются философские взгляды выдающегося представителя немецкой философии А.Шопенгауэра. Автор, анализируя творчество Шопенгауэра, выдвигает свои собственные соображения относительно использования им идей философии романтизма. По мнению автора, целый ряд категорий и понятий в системе Шопенгауэра были заимствованы из философии романтизма, в особенности из учений Ф.Шлегеля и Ф.Шеллинга. Философии Шопенгауэра характеризуется автором как продолжение традиций романтизма в новой форме - в духе неоромантизма.



**Ключевые слова:** романтизм, философия романтизма, неоромантизм, традиция романтизма

## THE TRADITIONS OF ROMANTICISM IN PHILOSOPHICAL HERITAGE OF A.SCHOPENHAUER

**A.S.MAMMADOVA**

**SUMMARY**

In the article the philosophical views of the prominent representative of German philosophy, Arthur Schopenhauer becomes the object of study. The author, paying attention to the creation by Schopenhauer, puts forward her judgements on his benefiting from philosophy of romanticism. In the author’s opinion, a series of the categories and notions in A.Schopenhauer’s system was adopted from romanticism in philosophy, in particular, the doctrines of F.Schegel and F.Schelling. A.Schopenhauer’s philosophy is characterized as continuation of romanticism traditions in a new form and as the example of neoromanticism.

**Key words:** Romanticism, philosophical romanticism, romanticism traditions, neoromanticism